**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.262**

**VAHİD MƏMMƏDOV***

# AZƏRBAYCAN MİLLİ MUSİQİSİNİN İNKİŞAF MEXANİZMLƏRİ

*Milli mədəni sərvətlərin öyrənilməsi, onların əhəmiyyətinin dərk edilməsi, milli adət-ənənələrə diqqətli münasibət mədəniyyət sahəsində dövlət siyasətinin tərkib hissəsinə çevrilir. Təsadüfi deyil ki, mətbuatda getdikcə ümumi nəzəri formada bəstəkarlarımızın musiqi əsərlərinin təhlili ilə bağlı milliliyin musiqidə istifadəsi, inkişafı barədə suallar, qaldırılan yazılar getdikcə artır. Məqalədə ələ almaq istədiyimiz mövzu da məhz bununla bağlıdır. Məqsədimiz müasir mərhələdə çoxcəhətli yaradıcılıq təcrübəsi üçün ən vacib olan bəzi problemləri nəzərdən keçirmək, onun aspektlərini müəyyənləşdirməkdir. Milli musiqinin orijinallığının necə qorunduğunu öyrənib, başa düşməyə keçməzdən əvvəl mütləq bir neçə ilkin təhlillər aparılmalıdır.*

*Əsrlərin sınağından keçib günümüzə qədər qorunan milli orijinallıq günümüzün aktual problemi olub, xalqın mövcudluğunun realist sənətdəki inkişafının obyektiv nümunəsidir. O istər-istəməz bədii obrazın obyektiv vəhdət və reallığını həssas əks etdirmə forması kimi bir duyğudan irəli gəlir. Ümumilikdə sənətdə, xüsusən də, musiqidə milli anlayış, ona münasibət, onun təzahür formaları davamlı olaraq tarixi dəyişikliyə məruz qalıb və qalmaqda davam edəcək. Bunu isə qloballaşan dünyanın ümumiləşən problemi kimi qiymətləndirmək lazımdır. Xalqımızın türklük təfəkkürü onun mövcudluğu və təşəkkülünün ən mühüm xüsusiyyətlərindən biridir.*

*Azərbaycan milli musiqisinin inkişaf mexanizmləri haqqında danışarkən bəzi problemlərə toxunaraq mədəniyyətimizin qarşısında duran bütün məsələlərə təbii ki, aydınlıq gətirə bilmərik. Ardıcıllıqla göstərilən hər bir məsələnin ayrı-ayrılıqda geniş təhlilə ehtiyacı vardır. Bir daha vurğulamağa ehtiyac vardır ki, söhbət təbii və məntiqi tarixi inkişafın sadalanması və tədqiqindən deyil, həmdə bu sahələrin çevik həssaslıqla Azərbaycan mədəniyyətinə qazandırılmasından gedir. Bütün bunları nəzərə alaraq sonda qeyd edək ki, bu sahədə işləyən çoxlu ziyalıların olmasına baxmayaraq Azərbaycan milli musiqisinin inkişaf mexanizmlərini təhlil edən və hərtərəfli inkişafını təmin edən bəstəkar, musiqişünas və tədqiqatçılara hələdə ehtiyac vardır.*

***Açar sözlər:*** *Milli musiqi, "Şur" simfonik muğamı, Azərbaycan bəstəkarları, ritual mahnılar, novator bəstəkar, musiqidə obraz, dominant təsir, təsnif, rəqs, diringi, dəraməd.*

## Giriş

Azərbaycan mədəniyyəti musiqi tarixinin ən maraqlı dövrlərindən birini yaşayır. Əminliklə demək olar ki, incəsənətdə bu milli intibahı, milli musiqinin özəlliyi probleminin tədqiqi yaradıcılığı üçün belə, bu qədər mühüm aktuallığa, sırf praktiki əhəmiyyətə malik olmamışdı. Azərbaycan mədəniyyətinin tərkib hissəsi olan musiqimizin inkişaf mexanizmi özünəməxsus xüsusiyyətlərə malikdir. Müstəqillik dövründə yeni vüsət alan milli musiqi sənəti dünya səhnələrinə geniş yol tapmağa başlamışdır.

## Əsas məzmun

Milli mədəni sərvətlərin öyrənilməsi, onların əhəmiyyətinin dərk edilməsi, milli adət-ənənələrə diqqətli münasibət mədəniyyət sahəsində dövlət siyasətinin tərkib hissəsinə çevrilir. Təsadüfi deyil ki, mətbuatda getdikcə ümumi nəzəri formada bəstəkarlarımızın musiqi əsərlərinin təhlili ilə bağlı milliliyin musiqidə istifadəsi, inkişafı barədə suallar, qaldırılan yazılar getdikcə artır. Məqalədə ələ almaq istədiyimiz mövzu da məhz bununla bağlıdır. Məqsədimiz müasir mərhələdə çoxcəhətli yaradıcılıq təcrübəsi üçün ən vacib olan bəzi problemləri nəzərdən keçirmək, onun aspektlərini müəyyənləşdirməkdir. Milli musiqinin orijinallığının necə qorunduğunu öyrənib, başa düşməyə keçməzdən əvvəl mütləq bir neçə ilkin təhlillər aparılmalıdır.

Əsrlərin sınağından keçib günümüzə qədər qorunan milli orijinallıq günümüzün aktual problemi olub, xalqın mövcudluğunun realist sənətdəki inkişafının obyektiv nümunəsidir. O istər-istəməz bədii obrazın obyektiv vəhdət və reallığını həssas əks etdirmə forması kimi bir duyğudan irəli gəlir. Ümumilikdə sənətdə, xüsusən də, musiqidə milli anlayış, ona münasibət, onun təzahür formaları davamlı olaraq tarixi dəyişikliyə məruz qalıb və qalmaqda da davam edəcək. Bunu isə qloballaşan dünyanın ümumiləşən problemi kimi qiymətləndirmək lazımdır. Xalqımızın türklük təfəkkürü onun mövcudluğu və təşəkkülünün ən mühüm xüsusiyyətlərindən biridir. Millətin birləşmiş bir obrazı

meydana gəldikdə bütöv bir xalqdan danışmaq olar. Lakin nəzərə almaq lazımdır ki, yuxarıda sadalanan bəzi əlamətlər varsa, xalqın formalaşması özünü göstərməklə sənətə, ədəbiyyata, rəssamlığa, teatr və musiqiyə dominant təsir göstərir. Bütün bunları nəzərə alaraq xüsusilə qeyd etmək lazımdır ki, sənətdə milli musiqi mövzusunu təhlil edərkən bu meyarları gözardı etmək olmaz.

Lakin eyni zamanda biz digər tərəfdən ifrata varmamalı, həm də unutmamalıyıq ki, müxtəlif xalqların mədəniyyətlərinin tarixi formalaşmasında və inkişafında onların təkcə fərdi fərqliliklərinin deyil, həm də ən azı bir neçə amillə müəyyən edilən inkişaf mexanizm xüsusiyyətləri də aşkara çıxarılmışdır. Birincisi müxtəlif xalqların tarixi və sosial-iqtisadi mövcudluq şəraitinin oxşarlığı, ikincisi isə onların daimi qarşılıqlı əlaqəsidir. Çünki insan mədəniyyətini bütövlükdə fərdi, təcrid olunmuş, öz-özündə inkişaf edən ayrıca mexanizm hesab etmək sadəcə mümkün deyil.

Qarşılıqlı təsirin forma dərəcəsi müxtəlifdir ki, bu da xalqların formalaşmış ünsiyyət diapozonundan asılıdır. Aydındır ki, bir sıra mədəniyyətlərin bu ümumiliyi onların tarixi inkişaf prosesində qarşılıqlı əlaqəsi eyni coğrafiyada məskunlaşıb və eyni kökdən gəlməsi ilə də izah oluna bilər. Beləliklə, bütün sadalananları incəsənətin müxtəlif sahələrində, (məsələn "Koroğlu" dastanı həm Türk folklorunda, həm də Azərbaycan folklorunda mövcuddur) musiqidə də kifayət qədər aydın müşahidə edə bilərik. Göründüyü kimi milli musiqinin unikallığının necə təzahür etməsi, hansı istiqamətdə inkişaf etməsini ayırd etmək o qədər də asan deyil. Milli melodik intonasiya quruluşu musiqinin metro-ritmi, tembri və s. kimi spesifik xüsusiyyətləri əsərin milli kimliyini müəyyən edən əsas elementlərin təhlili ilə başlayır. Qeyd etmək lazımdır ki, biz Azərbaycan milli musiqisinin inkişaf mexanizmlərinin araşdırılması məsələsindən nisbətən uzaqlaşsaq da, məqsədimiz ümumi planda elə məhz araşdırdığımız bu mövzunun dərin təhlilidir.

Bununla belə yuxarıda sadalanan mülahizə prosesində nəzərəçarpacaq dərəcədə əhəmiyyət kəsb edən məntiqi inkişaf prosesinə nəzər saldıq. Beləliklə, mədəniyyətin inkişaf mexanizmini musiqi sənətində də təməl prinsiplərlə eyni olduğunu təsdiq etmək mümkündür.

Hər bir xalqın özünəməxsus musiqi əsərlərinin müxtəlif növləri, başqa sözlə desək, musiqi janrları olduğu kimi Azərbaycan xalq musiqisinin də öz spesifik xüsusiyyətlərinə görə müxtəlif mahnılardan, təsniflərdən, rəqslərdən, rənglərdən, şikəstə və muğamlardan ibarətdir. (Orxan Orxanbəyli.səh.80)

Musiqinin yalnız formaca milli olması fikrini tam qəbul etsək, onda başqa suallar yaranır; musiqidə milli ifadə vasitələri haradan gəlir, onların musiqidə zahiri xüsusiyyətlərini nə müəyyən edir? Bütün bu məsələlərə aydınlıq gətirmək və öz fikrimizi daha aydın izah etmək üçün incəsənətin bir növü kimi musiqi sənətinin spesifik xüsusiyyətləri üzərində qısaca dayanmağı məqsədəuyğun hesab edirik.

Məlumdur ki, musiqi sənəti təbiəti və insanın emosianal hiss və həyəcanını, səslərin dili ilə çatdırılmasını özündə ehtiva edir. Adətən rəssam bir rəsm əsəri üzərində işləyəndə kətan üzərində boyaların dili ilə, bəstəkar isə səslərin ahəngini yaradaraq musiqinin dili ilə danışır. Təbiidir ki, musiqiçi rəngli qələm götürüb insan sevgisinin şəklini çəkə bilməz, amma onun oyandırdığı duyğuları ifadə edə, və bir insan obrazını yaradarkən onun iç dünyasını ortaya çıxara bilər. Musiqinin şəkil çəkmək gücü onun insan duyğularına daxilən təmas etməsi bacarığı ilə meydana çıxır və onu səslərin dili ilə ifadə sənəti olaraq sinifləndirmək üçün bizə səbəb verən özəllik kimi xarakterizə edir.

Musiqinin bu xüsusiyyəti xalq mahnılarında özünü daha aydın təzahür edir ki, nümunə kimi; "Sudan gələn sürməli qız", "Şum nəğməsi", "Çoban avazı" və s. göstərmək olar. Buna görə də, musiqi obyekti konkret olaraq təsvir etməsə də, onun yaratdığı heyrətamiz duyğular, hiss-həyəcan, xoş əhval-ruhiyyə səslərin dili ilə dəqiqliklə dinləyiciyə çatdırılır. Təbii ki, musiqinin vizual imkanları sırasına, su şırıltısı, göy gurultusu, yarpaqların səsini də əlavə etmək olar. Xalq rəqsi "Cütçü" öz adını kəndlilərin yer şumlamasından götürmüşdür. Çətin ki musiqidə yeri şumlamaq üçün hansısa ayrı bir metoddan istifadə olunsun, bu mümkün də deyil və buna ehtiyac da yoxdur. Bunun üçün incəsənətin rəssamlıq, heykəltaraşlıq və ədəbiyyat kimi sahələri var. Musiqidə isə ümumi mənada ritmin və səslərin harmonik ahəngi hesabına şən, emosional, canlı bir mühit yaratmaq mümkündür.

Milli musiqinin inkişaf mexanizmləri aspektindən yanaşsaq, melodiya, xüsusən də xalq mahnı və rəqslərində bəzi inkişaf prinsipləri meydana çıxır. Melodiya bir qayda olaraq həm də harmonik dizaynı nəzərdə tutur. Bu məqamda qeyd etmək lazımdır ki, melodiya əsərin milli obrazı üçün xüsusi

olaraq onun artıq emosional məzmun-vəhdətini bu və ya digər dərəcədə üzə çıxarmaqla müəyyən edir, milli dünyagörüşü, onun təcəssümü üçün ifadə vasitələrinə çevrilir. Əmək, bayram və ritual mahnıları yaradaraq onları nəsildən-nəsilə ötürən Azərbaycan xalqı öz estetik zövqünün, dünyabaxışı xüsusiyyətlərini ən səciyyəvi, aydın ifadələri ilə seçir və özünün şəxsiyyət meyarına çevirir. Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, xalqın çoxəsrlik cilalanmış keyfiyyət sınağından keçən musiqi nümunələri peşəkar bəstəkar əsərlərinə yol tapanda ona özünəməxsus xüsusi ləzzət verir. Ü. Hacıbəyovun “Arşın malalan” operettasında “Məşədi İbad”ın mahnısı buna parlaq nümunədir. Bəstəkar burada “Uzundərə” xalq rəqsindən məharətlə istifadə edərək yerli tacirin yumoristik obrazını ustalıqla yaratmışdır. Təcrübə göstərir ki, bəzən xalq mahnı və melodiyalarına istinad edən musiqi heç də həmişə obrazın tam açılmasına kömək etmir. Musiqidə obraz və mövzu anlayışları bir-birinə yaxın olsa da, eynilikdən uzaqdır. Bundan əlavə, obraz zaman keçdikcə inkişaf edir və formalaşır, bu isə zamanın tələbinə uyğun olaraq mövzuların da yenilənmə ehtiyacını ortaya qoyur. Xalq milli musiqi sənətinə müraciət edən bəstəkarın təxəyyül və təfəkkürü arasında ziddiyət varsa, ərsəyə gələn musiqi xalqın zövqünə xitab etməyə bilər. Fikrimizi daha aydın izah etmək üçün qeyd edək ki, Fikrət Əmirovun “Şur” simfonik muğamı hər hansı Avropa xalqının melodiyalarına istinadən yazılsa idi, təbii olaraq nəinki bugünkü uğurlu səhnə həllinə nail ola bilərdi, heç yaddaşlarda da qalmazdı.

Melodiya əsərin milli kimliyini tam müəyyən etməsə də, şübhəsiz ki, bəstəkarın xalq musiqisinə münasibətində əsas amildir. Digər tərəfdən milli ruhda yazılmış əsərlərdə xalq musiqilərindən istifadə olunmasa belə, öz milli kimliyini təsdiq edən faktlara tez-tez buna rast gəlirik. M. Maqomayevin “Şah İsmayıl” operasından “Aslan” şahın ariyası buna parlaq nümunə ola bilər. Amma bəstəkarın milli ruha köklənmiş musiqi əsərləri adətən xalq arasında daha dərin rəğbətlə qarşılanır və uzunömürlü səhnə taleyi olur. Qeyd etmək lazımdır ki, əgər melodiya əsərin milli kimliyini müəyyən etmirsə, onu sönük və qeyri-peşəkar bəstəkar işi kimi gərəksiz də qiymətləndirmək yanlış olardı. Danılmaz faktdır ki, kifayət qədər Azərbaycan bəstəkarlarının klassik Avropa bəstəkarlıq məktəbi ənənələrinə söykənərək major və minor ladında yazılmış əsərlərinin uğurlu səhnə taleyi olmuşdur .

Yeri gəlmişkən lad musiqi sənətində xalqı özünəməxsus şəkildə təmsil edən ən mühüm elementlərdən biridir. Azərbaycan xalqının novator bəstəkarı, publisist, dramaturq, əvəzsiz pedaqoq Ü.Hacıbəyov özünün “Xalq musiqisinin əsasları” adlı monumental nəzəri əsərində mükəmməl bir örnək ortaya qoymuşdur. Azərbaycan ladlarını təhlil edən bəstəkar eyniadlı əsərinin II hissəsində xalq üslubunda Azərbaycan ladlarında musiqi bəstələmək qaydaları haqqında müfəssəl məlumat verir və bu qaydaların tətbiq edilməsini zəruri sayır. Ayrı-ayrılıqda hər bir muğam ladının quruluş formulunu verən bəstəkar səsardıcıllığı və quruluş formulunu təhlil edir.

1-1-1/2 formulu üzrə qurulmuş üç bərabər tetraxordun qovuşuq birləşməsi “Rast” ladının səsqatarını əmələ gətirir. (Üzeyir Hacıbəyov. səh.47) “Azərbaycan xalq musiqisinin əsasları” həm gənc musiqiçilər, həm də bəstəkarlar üçün əvəzsiz vəsaitdir.

Ladların ayrı-ayrı xalqları təmsil edən spesifik xüsusiyyətləri onların təməl səs qatarı və melodiya xüsusiyyətləri əsasında milli kimliyini təsdiq edən başlıca amil kimi meydana çıxır. Bu isə milli musiqinin inkişaf mexanizmiləri prinsiplərinə uyğun gəlir.

Melodiya, lad və harmoniya üçü bir arada vəhdət təşkil etdikdə əsrarəngiz milli musiqinin əsas elementlərinə çevrilir. Lad əsas melodiyanın orijinallığını müəyyən edir və milli musiqinin xalq folklor nümunəsinə çevrilməsinə şərait yaradır. Xalq ladında yazılan melodiyanın orijinallığını harmoniya da eyni dərəcədə qorumalıdır. Amma bu hər dəfə alınmır, bunu isə belə izah etmək olar ki, harmoniya musiqidə müşayiət elementi kimi obyektiv qanunauyğunluqlara da əməl etməlidir. Odur ki, hər xalqın mübahisəolunmaz özünəməxsus milli harmonik musiqi dilinin unikallığını həssaslıqla nəzərə alıb necə ifadə etməsindən çox şey asılıdır.

Artıq yuxarıda da qeyd etdiyimiz kimi harmonik dil musiqinin digər fərdi ifadə vasitələri kimi bəstəkarın bədii yaradıcılıq təfəkkürünün xüsusiyyətlərini, həm də dünyagörüşünü əks etdirir. Bu mənada Azərbaycan bəstəkarlıq məktəbi nümayəndələrinin hərəsinin özünəməxsus dəsti-xətti və üslubu vardır.

Bir sözlə Azərbaycan bəstəkarları içərisində eləsi tapılmaz ki, öz yardıcılığında xalq musiqimizdən bəhrələnməsin. (Məmməd Saleh İsmayılov.səh54)

Melodiyanın xarakterini ayırd etməyə bəzən musiqi sənətinin digər elementi olan metro-ritm də kömək edir. Azərbaycan musiqisinin özəyini təşkil edən aşıq havaları, dəraməd, rəng, diringi, rəqs, təsnif və mahnıların tez-tez raslanan metro-ritmi 6/8 olur. Əlbəttə ki sırf elmi nəzəri baxımdan təbii ki hər önümüzə çıxan xalq musiqisi haqqında bu fikri səsləndirmək olmaz. Amma bu fakt kifayət qədər tez-tez rast gəlinən haldır. Və nəhayət Azərbaycan musiqisinin ayrılmaz tərkib hissəsi kimi instrumental tembr xüsusiyyətini də qeyd etmək yerinə düşər. Azərbaycan xalq çalğı alətləri tar, kamança, balaman, saz, ud və tütəyin tembrləri musiqi əsərlərinə xüsusi ahəng qatır. Xalq çalğı alətlərindən istifadə istəyi nəinki bəstəkarların tembr palitrasının rəngarəngliyini artırır, həm də Azərbaycan xalq musiqisinin inkişaf mexanizmilərini təkminləşdirir.

Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan xalq musiqisinin inkişaf mexanizmləri haqqında danışarkən milli musiqi yaradıcılığının bir sıra komponentlərini, melodiya, metro-ritm və tembr çalarlarını çatdırmağa çalışdıq. Azərbaycan milli musiqi sənətinin nəzəriyyəsi və praktikasında musiqi komponentlərini sadalamaqla yaranan problemlərlə kifayət qədər tanış olmayan musiqişünaslara əvvəlki müzakirələrin hamısı nəzəri problem kimi görünə bilər. Əslində isə vəziyyət o qədər də sadə deyil. Məsələnin mübahisəli tərəfi isə heç də hər bir əsərdə xalq milli musiqisinin folklor nümunələrinə müraciətindən də getmir. Məsələ mahiyət etibarı ilə qloballaşıb ümumiləşən və milli kimliyini itirən dünyada bəstəkar əsərlərinin hər xanəsində birbaşa Azərbaycan xalq musiqisinin ruhunun hiss olunmasından gedir. Bu isə milli folklor musiqimizin bəstəkarların improvizasiya bacarığı vasitəsi ilə daha böyük dinləyici kütləsi qazanmasına real şərait yaradır. Folklorun dar çərçivəsindən çıxaraq vətənimizin hüdudlarını aşmaqla peşəkar sənətin geniş yoluna çıxa bilmək və xalq musiqi yaradıcılığının daha böyük dinləyici auditoriyası qazanmaq uğrunda mübarizəsi bəstəkarların üzərinə düşən vətəndaş borcu olmalıdır. Avropada formalaşmış musiqi janrlarını Azərbaycan peşəkar bəstəkarlıq sənətində tətbiq etmək, xalq musiqi folklorundan istifadə etməklə yeni-yeni əsərlərin yaranmasına, və dinləyici kütləsinin qəlbinə yol tapmaq olar. Sadalanan məsələlərə praqmatik yanaşmaqla Azərbaycan bəstəkarlıq sənətini daha məhsuldar və keyfiyyət etibarı ilə yeni mərhələyə yüksəltmək mümkündür.

Musiqi intonasiya strukturuna istinadən milli melodiyanın özünəməxsusluğuna təsiri də artıq bütün mətn boyu qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki milli musiqinin xarakterini şərtləndirən daha bir neçə amilə toxunmaq lazımdır. Musiqinin tarixi inkişaf yoluna nəzər salsaq, görərik ki, hər xalqın özünəməxsus fərqli inkişaf yolları vardır. Təbiidir ki, xalq yaradıcılığı nümunələrini milli incəsənət abidələri hesab edirik. Əsrlər keçməsinə baxmayaraq xalqın həyatında baş verən köklü dəyişiklikləri, qədim xalq musiqisinin bəzi elementlərini indi də aşkar görməyə şərait yaradır. Xalqın əsrlərin süzgəcindən süzülüb gələn və tarixin sınağından keçmiş bu musiqiləri onun mental xüsusiyyətindən xəbər verir. Xalqların mental xüsusiyyətlərini isə onun yaşadığı coğrafı məkan formalaşdıra bilir. Biz sadalananları təbii reallıq kimi qəbul etsək, xalqın mədəni intibah yolunu təyin edən əsas xüsusiyyətlərdən biri də ən həssas sahə olan məhz musiqi sənətidir.

Qeyd etmək lazımdır ki, xalqları mental xüsusiyyətlərinə və psixoloji durumuna görə siniflərə bölmək mümkün deyil. Amma xalqların həyatsevərlik, şənlik, müdriklik və təmkinlik kimi xüsusiyyətlərini özünütəzahür forması kimi musiqi sənətində aydın görmək olar. Elə buna görədir ki, məhz incəsənət bütövlükdə xalqın xarakterini və dünyagörüşünü milli kimlik kimi özündə ehtiva edir.

Azərbaycan milli musiqisinin inkişaf mexanizmilərini təhlil edərkən biz təbii ki, xalq folklorunun fundamental sahələri olan muğam və aşıq sənətinə toxunmadan keçə bilmərik. Hər xalqın şifahi ənənəyə əsaslanan ustaddan şagirdə ötürülməklə nəsildən-nəsilə keçən folklor sənəti vardır. Biz artıq əvvəldə muğam sənəti haqqında Ü.Hacıbəyovun "Xalq musiqisinin əsasları" adlı monoqrafiyası haqqında geniş məlumat verdik. Bu məqamda isə aşıq sənətinin xalq musiqi xəzinəsi kimi nə qədər böyük əhəmiyyətə malik olması haqqında məlumat verməyi özümüzə borc bilirik. Elektron musiqi alətlərinin texnoloji üstünlüyü şəraitində fərdi qaydada səhnəyə çıxıb dinləyici kütləsini ələ almağı bacaran, saatlarla ətrafına öz elektaratını toplaya bilən aşıq sənəti doğrudan da xalqın bu sahəyə olan marağını təmin etməyə borcludur. Ü. Hacıbəyov muğamları sistemləşdirərək bəstəkarların və müsiqişünasların istifadəsinə verdi. Amma aşıq sənətini toplayıb musiqi ictimaətinə çatdırmağa isə ömür vəfa etmədi. Aşıq sənəti də muğam sənəti kimi dərin köklərə malikdir və onun tədqiq olunub

peşəkar musiqiçilərə təqdim olunmasına ehtiyac var.

Aşıq kimdir, hansı xüsusiyyətlərə malikdir? Bu suala cavab vermək üçün əsaslı təhlilə ehtiyac var. Amma qısaca demək olar ki, aşıq bütün musiqilərinə şeir yazan şairdir, aşıq bütün dastan boyu musiqilər yazan bəstəkardır, aşıq böyük həcmli dastan yazan yazıçıdır, aşıq bütün səhnə boyu dastan nəql edən natiqdir, aşıq səhnəni ələ almağı bacaran rəqqasdır, nəhayət aşıq saz çalan kimi gözəl instrumental ifaçıdır. Aşıq sənətinin sadalanan hər bir sahəsi ayrılıqda yüksək peşəkarlıq tələb edən ciddi sahələrdir. Aşıq bir dastanı əvvəldən sona çatdırmaq üçün bir neçə sənəti özündə birləşdirir, bu isə bu peşə nümayəndələrinin necə hazırlıqlı sənətkar olduqlarına işarədir. Bundan əlavə bəzən aşıqlara haqq aşığı deyilir ki, bunun da subyektiv səbəbləri vardır. Xalqın şüuraltı təfəkküründə bəzi aşıqlara haqqın müəyyən sirlərinin agah olduğu barədə mifik inamın da mövcud olduğu məlumdur. Sadalananları nəzərə alaraq xüsusilə qeyd etmək lazımdır ki, aşıq sənətində toplanan incəsənətin bu nümunələri Azərbaycan xalqının dərin fəlsəfi dünyagörüşünü təcəssüm etdirir.

Aşıqlar keçmişin epik irsinin qanunauyğunluqlarını qoruyub saxlayır, müasir dövrün yaradıcılığını təbliğ edir, bununla da Azərbaycan xalqının folklor ənənələrinin qorunub saxlanmasına və inkişaf etdirilməsində mühüm missiyanı yerinə yetirir.(Tariyel Məmmədov.səh.15).

**Nəticə**

Azərbaycan milli musiqisinin inkişaf mexanizmləri haqqında danışarkən bəzi problemlərə toxunaraq mədəniyyətimizin qarşısında duran bütün məsələlərə təbii ki, aydınlıq gətirə bilmərik. Ardıcıllıqla göstərilən hər bir məsələnin ayrı-ayrılıqda geniş təhlilə ehtiyacı vardır. Bir daha vurğulamağa ehtiyac vardır ki, söhbət təbii və məntiqi tarixi inkişafın sadalanması və tədqiqindən deyil, həmdə bu sahələrin çevik həssaslıqla Azərbaycan mədəniyyətinə qazandırılmasından gedir. Bütün bunları nəzərə alaraq sonda qeyd edək ki, bu sahədə işləyən çoxlu ziyalıların olmasına baxmayaraq Azərbaycan milli musiqisinin inkişaf mexanizmlərini təhlil edən və hərtərəfli inkişafını təmin edən bəstəkar, musiqişünas və tədqiqatçılara hələdə ehtiyac vardır.

## ƏDƏBİYYAT


1. Orxan Orxanbəyli. "Tar tədrisinin metodikası". Bakı.1976. səh.80.
2. Üzeyir Hacıbəyov."Xalq musiqisinin əsasları" Bakı. 1985. səh.47.
3. Məmməd Saleh İsmayılov."Azərbaycan xalq musiqisinin janrları" Bakı. 1984. səh.54.
4. Tariyel Məmmədov."Традицонные напевы азербайджанских ашыгов" Баку.1988. səh.15



***Naxçıvan Dövlət Universiteti,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru,***
***Email:vahidmemmedli31@gmail.com***

**Vahid Mammadov**


## DEVELOPMENT MECHANISMS OF AZERBAIJANI NATIONAL MUSIC


The study of national cultural heritage, understanding of their importance, attentive attitude to national customs and traditions are becoming an integral part of state policy in the field of culture. It is no coincidence that in the press, questions about the use and development of nationality in music, related to the analysis of the musical works of our composers in a general theoretical form, are increasingly being raised. The topic we want to address in the article is precisely related to this. Our goal is to consider some of the most important problems for multifaceted creative practice at the modern stage, to identify its aspects. Before proceeding to study and understand how the originality

of national music is preserved, several preliminary analyses must be conducted.

National originality, which has passed the test of centuries and has been preserved to this day, is an urgent problem of our time, an objective example of the development of the people's existence in realistic art. It inevitably arises from a feeling as a form of sensitive reflection of the objective unity and reality of the artistic image. In general, in art, and in music in particular, the national concept, attitude to it, and forms of its manifestation have been and will continue to be subject to continuous historical change. This should be assessed as a general problem of the globalized world. The Turkic mentality of our people is one of the most important features of its existence and formation.

When talking about the mechanisms of development of Azerbaijani national music, we cannot, of course, clarify all the issues facing our culture by touching on some problems. Each issue listed in sequence needs a separate, extensive analysis. It is necessary to emphasize once again that this is not about enumerating and studying natural and logical historical development, but also about bringing these areas to Azerbaijani culture with flexible sensitivity. Taking all this into account, let us finally note that despite the presence of many intellectuals working in this field, there is still a need for composers, musicologists, and researchers who analyze the mechanisms of development of Azerbaijani national music and ensure its comprehensive development.

**Keywords:** *National music, "Shur" symphonic mugham, Azerbaijani composers, ritual songs, innovative composer, image in music, dominant influence, classification, dance, diringi, daramed.*

**Вахид Мамедов**

## МЕХАНИЗМЫ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ МУЗЫКИ

Изучение национальных культурных ценностей, понимание их значимости, внимание к национальным обычаям и традициям становятся неотъемлемой частью государственной политики в сфере культуры. Не случайно в печати появляется все больше статей, в которых поднимаются вопросы использования и развития народности в музыке, в связи с анализом музыкальных произведений наших композиторов в общетеоретической форме. Тема, которую мы хотим затронуть в этой статье, как раз связана с этим. Наша цель – рассмотреть некоторые наиболее важные вопросы многогранной творческой практики на современном этапе и выявить ее аспекты. Прежде чем перейти к изучению и пониманию того, как сохраняется аутентичность национальной музыки, необходимо провести несколько предварительных анализов. Национальная самобытность, выдержавшая испытание веками и сохранившаяся до наших дней, является актуальной проблемой современности и объективным примером развития народного бытия в реалистическом искусстве. Оно неизбежно возникает из чувства как формы чувственного отражения объективного единства и реальности художественного образа. В целом национальная концепция, отношение к ней, формы ее проявления в искусстве, и в музыке в частности, претерпевали и будут претерпевать непрерывные исторические изменения. Это следует рассматривать как общую проблему глобализированного мира. Тюркский менталитет нашего народа является одной из важнейших характеристик его существования и формирования. Говоря о механизмах развития азербайджанской национальной музыки, мы, конечно, не можем, затрагивая лишь отдельные проблемы, осветить все вопросы, стоящие перед нашей культурой. Каждая проблема, перечисленная в последовательности, требует отдельного подробного анализа. Необходимо еще раз подчеркнуть, что речь идет не о перечислении и изучении естественно-логического исторического развития, а о включении этих сфер в азербайджанскую культуру с гибкой чувствительностью. Учитывая все это, отметим в заключение, что, несмотря на наличие множества представителей интеллигенции,

работающих в этой области, все еще ощущается потребность в композиторах, музыковедах, исследователях, анализирующих механизмы развития азербайджанской национальной музыки и обеспечивающих ее всестороннее развитие.

**Ключевые слова:** *Национальная музыка, симфонический мугам «Шур», азербайджанские композиторы, обрядовые песни, композитор-новатор, образ в музыке, доминирующее влияние, классификация, танец, диринги, дарамед.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 02.02.2025**
**Son daxilolma tarixi:29.02.2025**